

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 77 (21.487)

28 aprel 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də İran İslam Respublikası Prezidentinin müavini, mədəni irs, əl işləri və turizm təşkilatının sədri Məsud Soltaniferi qəbul edib.

Dövlətimizin başçısı İran İslam Respublikasının BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda yüksək səviyyədə təmsil olunmasından məmnun olduğunu deyib və bunu dostluğumuzun növbəti göstəricisi kimi qiymətləndirib. Son vaxtlar İran İslam Respublikasının yüksək vəzifəli şəxslərinin ölkəmizə səfər etdiklərini vurğulayan Prezident İlham Əliyev İran Prezidenti Həsən Ruhani ilə bu yaxınlarda İstanbuldakı görüşünü də məmnunluqla xatırlayaraq bildirib ki, bütün bunlar ölkələrimiz arasında münasibətlərin nə qədər yüksək səviyyədə olmasını göstərir.

İran İslam Respublikası Prezidentinin müavini, mədəni irs, əl işləri və turizm təşkilatının sədri Məsud Soltanifər BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib. Hələ Gilan valisi vəzifəsində çalışdığı vaxt bir neçə dəfə Bakıda, Gəncədə və Azərbaycanın digər yerlərində olduğunu deyən iranlı qonaq budəfəki səfəri zamanı son vaxtlar ölkəmizdə gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını deyib və bütün sahələrdə əldə olunan nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru xanım Jill Helken ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış və onu Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əlaqələrin uzun müddətdir davam etdiyini bildirən Ali Məclisin Sədri demişdir ki, təşkilat tərəfindən muxtar respublikada kəhriz sistemlərinin bərpası layihəsinin və sərhəd mühafizəsinin təşkili ilə bağlı seminarın keçirilməsi müsbət nəticələr vermişdir. Ali Məclisin Sədri həyata keçirilən birgə tədbirlərin dünyanı narahat edən problemlərin həllinə töhfə verdiyini bildirmiş və Beynəlxalq Miqrasiya Təşkilatının bu sahədəki fəaliyyətini yüksək qiymətləndirmişdir.



Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbərinin Naxçıvana səfərindən və həyata keçirilən qarşılıqlı tədbirlərdən danışan Ali Məclisin Sədri əlaqələrin davam etdirilməsinin əhəmiyyətini vurğulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Jill Helken Beynəlxalq Miqrasiya Təşkilatının baş direktorunun salamlarını Ali Məclisin Sədrinə çatdırmışdır. Qonaq Naxçıvan Muxtar Respublikasında son illər müşahidə olunan inkişafın və qazanılan nailiyyətlərin məmnunluq doğurduğunu bildirmiş, mövcud potensialın əlaqələrin genişləndirilməsi üçün yeni imkanlar açdığını qeyd etmişdir.

Görüşdə gələcək əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru Naxçıvanın qədim tarixi abidələri, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub



***Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru xanım Jill Helkenin Naxçıvan şəhəri ilə tanışlığı ümummilli liderin abidəsini və Heydər Əliyev Muzeyini ziyarətlə başlayıb.***

Heydər Əliyev Muzeyində qonağa məlumat verilib ki, bu muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Ulu öndərin sağlığında yaradılan muzeydə görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanılıb. Hər il minlərlə tamaşaçı muzeyi ziyarət edir.

Sonra xanım Jill Helken "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olub. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində qonağa məlumat verilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Buna görə də ərazidə tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri mövcuddur. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 iyun 2013-cü il tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb.

Kompleksdəki Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət edən qonaq sonra Naxçıvan şəhərindəki bərpa olunmuş "Qələndər" kəhrizinə baxıb. Məlumat verilib ki, "Qələndər" kəhrizi Naxçıvan şəhərindəki 19 kəhrizdən biridir. Üç quyudan ibarət bu kəhriz də əhalinin və təsərrüfatların suya tələbatının ödənilməsində mühüm rol oynayır.

Muxtar respublikada istehsal olunan 900-dən çox müxtəlif yerli məhsulun nümayiş etdirildiyi Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq xanım Jill Helkendə böyük təəssürat yaradıb.

Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru blokada şəraitində yaşayan muxtar respublikada yaradılan müəssisələrin istehsal etdiyi məhsullara, əl işlərinə, sənət əsərlərinə maraqla baxıb. Məlumat verilib ki, mərkəzdə kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər bir çox çeşiddə yerli məhsullar sərgilənir.

Sonra Naxçıvan şəhərindəki "Təbriz" mehmanxanasında xanım Jill Helkenin iştirakı ilə "Readmissiya və insan hüquqları" mövzusunda seminar keçirilib.

Buradan Duzdağ Fizioterapiya Mərkəzinə gələn xanım Jill Helkenə məlumat verilib ki, mərkəz 1979-cu ildən 50 çarpayılıq xəstəxana kimi fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-ə çatdırılıb. Yer altındakı müalicə mərkəzi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə yerləşir. 2006-cı ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb. Şöbənin 300 metr giriş yolu genişləndirilib, yolboyu işıqlandırma sistemi yaradılıb.

Qeyd olunub ki, burada uşaqlar 12-15, böyüklər isə 14-18 gün hər cür şəraiti olan yeraltı tuneldə yaşamaqla müalicə alırlar. Xəstəxana horizontal şəkildə olduğundan buraya gələn xəstələr tuneldə, təxminən, 300 metr məsafəlik yolu özləri qət edirlər. Bu isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Belə olan halda burada müalicə alan xəstələr qısa müddətdə sağala bilirlər. Xəstələr əvvəlcə 2-3 gün müddətində xəstəxana ərazisinə adaptasiya olunurlar. Bundan sonra saat 18[00]-dan səhər saat 8[00]-dək böyüklər 20-24 seans, uşaqlar isə 14-18 seans yeraltı şöbədə müalicə alırlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 65-70 faiz, uşaqlarda isə 80-85 faiz yaxşılaşma müşahidə edilir.

Aprelin 27-də Beynəlxalq Miqrasiya Təşkilatının Beynəlxalq Əməkdaşlıq və Tərəfdaşlıq İdarəsinin direktoru xanım Jill Helkenin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

**✍ Səbuhi HƏSƏNOV**

***Aprelin 27-də Şərur Şəhər Mədəniyyət Sarayında keçirilən növbəti əmək yarmarkasını giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov açmış, muxtar respublikada əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışmışdır.***

## Əmək yarmarkasında 38 nəfərə işə qəbul üçün göndəriş verilmişdir

Qeyd edilmişdir ki, vətəndaşların məşğulluğunun təmin olunması məqsədilə həyata keçirilən tədbirlərdən biri də əmək yarmarkalarıdır. Şərur Rayon Məşğulluq Mərkəzi rayonda fəaliyyət göstərən dövlət təşkilatları, özəl qurumlar, emal və istehsal müəssisələri ilə sıx əlaqə saxlayır, boş iş yerləri barədə məlumatlar toplayır, həmin yerlər əmək yarmarkalarında vətəndaşlara təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası vətəndaşların sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynamışdır. Bu il yanvar ayının 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunmuş növbəti dövlət proqramı isə 2016-2020-ci illəri əhatə edir. Dövlət proqramının məqsədi səmərəli məşğulluğun inkişafına yönəldilən tədbirlərin davamlılığının təmin edilməsinə, vətəndaşların özünüməşğulluq imkanlarının artırılmasına, əmək ehtiyatlarının və peşə hazırlığının əmək bazarına uyğun formalaşdırılmasına, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğuna nail olmaqdır.

Rayon İcra Hakimiyyətinin əməkdaşı Füzuli Hüseynov əmək yarmarkasında çıxış edərək vurğulamışdır ki, yeni yaradılan istehsal və emal müəssisələri, aqrar sahənin inkişafı, tikinti-quruculuq işlərinin həcminin artması, xidmət şəbəkələrinin genişlənməsi vətəndaşların işlə təmin olunmasına imkan vermişdir.

Mədəniyyət sarayının foyesində işini davam etdirən əmək yarmarkasına 37 təşkilatdan 276 boş iş yeri çıxarılmışdı. Yarmarkada 38 nəfərə işə qəbul olunmaq üçün göndəriş verilmişdir.

**Elman MƏMMƏDOV**

# Akademik Zərifə xanım Əliyeva: müdrik və alicənab insan

***Görkəmli oftalmoloq-alim, ictimai xadim, akademik Zərifə xanım Əliyevanın şərəfli ömür yolu və elmi-ictimai fəaliyyəti insanlıq meyarlarına və müqəddəs həkimlik andına parlaq bir örnəkdir.***

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də qədim Naxçıvan torpağında, Şahtaxtı kəndində görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Onun cəmiyyət üçün layiqli insan kimi yetişməsində boya-başa çatdığı ziyalı mühitinin böyük təsiri olmuşdur. Zəngin maarifçilik ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları Zərifə xanımı hələ məktəb illərindən elmə, işıqlı ideallara doğru istiqamətləndirmiş, onun cəmiyyət üçün layiqli insan kimi yetişməsində böyük təsiri olmuşdur.

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Gənc yaşlarından fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə seçilən Zərifə Əliyeva tibb elmi ilə yanaşı, digər fənlərə də maraq göstərmiş, hərtərəfli biliyə malik həkim və xeyirxah insan kimi formalaşmışdır.

Qəlbi xeyirxahlıq amalları, humanizm ideyaları ilə döyünən Zərifə xanım Əliyevanın oftalmologiya elmini seçməsi zərurətdən yaranmışdı. Məhz həmin dövrdə Azərbaycanda böyük bəlaya çevrilən traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Ona qarşı təsirli müalicə üsulları isə yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicə-profilaktik tədbirlərin təşkilində fəal iştirak etmişdir.

Gözlərə nur bəxş etmək, dünya işığına həsrət qalan insanlara həyat eşqini qaytarmaq arzusu ilə yorulmadan çalışan Zərifə xanım Əliyeva şərəfli həkimlik peşəsinə daha dərindən yiyələnmək üçün 1947-ci ildə Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini davam etdirmişdir. İxtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa vurduqdan sonra 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. 1950-ci ildə aspiranturaya daxil olan görkəmli oftalmoloq müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olmuşdur. O, elmi fəaliyyətinin ilk mərhələsini traxoma infeksion xəstəliyinə və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadəyə həsr etmişdir.



1968-ci ildən başlayaraq Zərifə xanım məqsədyönlü şəkildə oftalmologiyanın digər problemləri, o cümlədən görmə orqanının patologiyası ilə ciddi məşğul olmağa başlamış, bu sahənin ilk təşəbbüskarı olmuşdur. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. O, peşə xəstəlikləri üzərində iş apararkən bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri müayinədən keçirmişdir. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxarmışdır. Ümumiyyətlə, Zərifə xanımın bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyyatının nadir tədqiqatları sırasındadır. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və onların profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Onun uzun illər bu sahədə apardığı genişmiqyaslı elmi-tədqiqat işlərinin nəticələri "Şin istehsalatında gözün peşə patologiyası", "Xronik yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi qiymətli monoqrafiyalarında öz əksini tapmışdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə fundamental tədqiqatlar həsr edən alim "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik-fizioloji təbiəti" kimi onlarla elmi məqalələr və monoqrafiyalar da çap etdirmişdir.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri görkəmli oftalmoloq-alimin doktorluq dissertasiyasının əsas istiqamətini təşkil etmişdir. Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən biri olan H.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə müdafiə etmişdir. Dissertasiya işi yüksək qiymətləndirilmiş və 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi adı verilmişdir.

Zərifə xanım Əliyeva yazdığı sanballı əsərlərlə tibb elminə dəyərli töhfələr verməklə yanaşı, həm də bu sahədə bir çox yeniliklərin təşəbbüskarı kimi də tanınmışdır. 1977-ci ildə Zərifə xanımın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Plenumda görkəmli alimin irəli sürdüyü təklif bəyənilmiş və onun təşəbbüsü ilə 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılmışdır.

Zərifə xanım Əliyevanın elmi tədqiqatları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin tədqiqatlar bir sıra xəstəliklərin differensial diaqnostikasını və onun müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri – "Herpetik göz xəstəliyi", "Ağır virus konyiktivləri" və sair məhz bu məsələlərə həsr olunmuşdur. Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini də tədqiq etmiş, "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi" monoqrafiyalarını çap etdirmişdir. Alimin zəngin pedaqoji, elmi və əməli təcrübəsi isə "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında öz əksini tapmışdır. Bu kitab nəinki oftalmoloqlar, bütövlükdə səhiyyənin bütün sahələri üzrə çalışan həkimlər üçün dəyərli elmi mənbədir.

Görkəmli alimi həkim etikası və tibbi deontologiya məsələləri də həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Zərifə xanımın çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuşdur. "Yüksək etimad" kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşmasında müstəsna əsərlərdəndir. 1983-cü ildə çapdan çıxmış "Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsəri də bu baxımdan qiymətli ədəbiyyatdır.

Zərifə xanımın çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini almışdır. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə və görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. 1983-cü ildə isə görkəmli oftalmoloq-alim Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. Bununla yanaşı, o, geniş ictimai fəaliyyətinə görə keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuş, bir sıra orden və medallara layiq görülmüş, Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adını almışdır.

Zərifə xanım yüksək biliyə malik elm adamı, peşəkar həkim olmaqla yanaşı, həm də gözəl ana, vəfalı ömür-gün yoldaşı idi. Ulu öndər Heydər Əliyev kimi böyük şəxsiyyətin həyat yoldaşı olmaq həm də böyük məsuliyyət idi. Zərifə xanımın şəxsiyyətində dəyanətli, dərin zəkalı, müdrik və fədakar Azərbaycan qadınının obrazı canlanır. O, işlərinin çoxluğuna baxmayaraq, Ana adının ucalığını özündə yaşatmışdır. Görkəmli akademik ümummilli liderin siyasi xəttinin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin anası kimi şərəfli bir ada sahibdir.

*Zərifə xanım Əliyevanın elmi əsərləri, tədqiqatları, çoxsaylı kitabları, işıqlı xatirəsi bu gün də insanların yaddaşında, gözlərinə nur bağışladığı xəstələrinin qəlblərində yaşayır. Həyatda belə böyük sevgi qazanmaq, özündən sonra nurlu xatirələr qoyub getmək çox az adamın taleyinə yazılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi:* ***"Böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, məşğul olduğu sahələrin hamısı Zərifə xanımın istedadı və fədakarlığı sayəsində aparıcı istiqamətə çevrilmiş və bir nümunə səviyyəsinə qalxmışdır. Bu gün istisnasız olaraq demək mümkündür ki, Zərifə xanım Əliyeva həm həkimliyin, həm alimliyin, həm pedaqoqluğun, bunlarla yanaşı isə həm də insanlığın ali zirvəsinə yüksəlmişdir".***

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Dövlət proqramı uğurla icra olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbinin davamlılığını təmin etməklə inklüziv və məsafədən (distant) təhsil imkanlarını artıracaq, uşaqların müasir tələblər səviyyəsində təhsil almasına, cəmiyyətə inteqrasiyasına, həmçinin bu sahədə pedaqoji kadr hazırlığının gücləndirilməsinə stimul verəcəkdir.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən redaksiyamıza daxil olan məlumatda bildirilir ki, nazirlik tərəfindən cari ilin I rübü ərzində dövlət proqramının icrasına uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı bir sıra işlər görülüb.

Belə ki, məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar barədə yaradılmış məlumat bazası yenilənib. Bu kateqoriyadan olan uşaqların əqli və fiziki potensialları nəzərə alınaraq məktəbəqədər təhsil müəssisələrinə, ümumtəhsil müəssisələrinə və görmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi ibtidai məktəbə, habelə distant dərslərə cəlb olunması diqqət mərkəzində saxlanılır. Sağlamlıq imkanları məhdud uşaqların məktəb mühitinə tədricən uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılıb.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə qabiliyyəti məhdud 9 şəxs üçün distant dərslərin keçilməsi davam etdirilir. Hərəkət qabiliyyəti məhdud bir uşaq distant tədrisə cəlb olunub. Hazırda Distant Tədris Mərkəzində 23 uşaq təhsil alır.

Məlumatda o da qeyd olunur ki, sağlamlıq imkanları məhdud uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, həmçinin uşaqlara defektoloji, multisensorlu və əmək terapiyası xidmətinin göstərilməsi davam etdirilir. Qeyd olunan dövr ərzində bu xidmətlərə, ümumilikdə, 139 uşaq cəlb olunub. Defektoloji bölmənin müəllim-defektoloqu iş təcrübəsini artırmaq məqsədilə Bakı şəhərindəki Müasir Psixologiya Mərkəzində kurs keçib.

Görmə qabiliyyəti məhdud uşaqların xüsusi ibtidai məktəbə cəlb edilməsi məqsədilə onların valideynlərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib, bu kateqoriyadan olan şəxslər üçün "Könül işığı" adlı brayl jurnalının hər ay nəşri təmin edilib.

Sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə xalq uşaq oyunlarından ibarət əyləncəli yarış keçirilib, onların asudə vaxtlarının səmərəli təşkili üçün uşaqlara M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tamaşa göstərilib.

Dövlət proqramında nəzərdə tutulan Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində diqqət zəifliyi olan və hiperaktiv uşaqlar üçün təlimbərpa otağının və psixoloji dəstək xidmətinin yaradılması istiqamətində hazırlıq işlərinə başlanılıb. Hər iki xidmət üçün ayrılan otaqlarda təmir işləri başa çatdırılıb, həmçinin müvafiq metodik vəsaitlər alınıb.

Məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə aidiyyəti dövlət orqanlarının nümayəndələrindən təşkil edilmiş komissiya tərəfindən ötən dövr ərzində Şərur, Kəngərli və Sədərək rayonlarında fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrdə monitorinqlər, həmçinin valideyn, şagird və müəllimlərlə maarifləndirici görüşlər təşkil edilib.

Dövlət proqramının icrası ilə bağlı görülən işlər davam etdirilir.

**Xəbərlər şöbəsi**

# "Okinava-Naxçıvan": iki ölkəni birləşdirən tarixin bir səhifəsi

## Biznes və sərmayə üçün əlverişli olan, yaponiyalıların tanımadığı dünya iqtisadiyyatı

*Keçən həftənin sonu və bu həftənin əvvəlləri Okinava prefekturası parlamentinin sədri Kina Masaharunun başçılığı ilə 40 nəfərdən ibarət Okinavanın Miyakocima-Azərbaycan dostluq missiya qrupu Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər edənlər içərisində Okinava prefekturası parlamentinin sədri Kina Masaharu və Miyakocima şəhərinin deputat qrupu, İşikava prefekturası parlamentinin deputatları, Fujiyama prefekturası parlamentinin deputatları, Komatsu şəhər parlamentinin deputatları, eləcə də Miyakocima və Azərbaycanı sevən Ekkyoukai cəmiyyətinin üzvləri də var idi.*



Bakıda olanda biz Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini Novruz Məmmədovla görüşmüş, eləcə də Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Sahil Babayevlə Okinava prefekturası parlamentinin sədri Kina Masaharunun qarşılıqlı söhbəti olmuşdur. Bu görüşlərdən sonra daxili hava yolları ilə biz Azərbaycan Prezidentinin vətəni Naxçıvana yola düşdük.

Naxçıvan Şəhər İcra Hakimiyyətində rəsmi görüş oldu. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov Naxçıvan şəhəri, Okinava prefekturası parlamentinin sədri isə Miyakocima şəhəri haqqında məlumat verdi. Mən də söz alaraq ürəyimdən keçən sevgimi sözlərimlə çatdırmağa çalışdım. Nə üçün Naxçıvana gəldiyim, Miyakocima ilə Naxçıvan arasında əlaqələrin qurulmasının vacibliyi haqqında məlumat verdim. Çox sevdiyim Azərbaycan və Okinava haqqında danışmaqdan doymurdum.

Bu görüş hər iki tərəf üçün tarixin yeni səhifəsinin yaradılmasında çox mühüm bir addım oldu. Belə bir görüşdə iştirak etdiyim üçün özümü çox xoşbəxt hiss edirəm. Kütləvi informasiya vasitələrinin əməkdaşları görüşə böyük əhəmiyyət verirdi. Heç şübhə yox idi ki, qrupumuzun Naxçıvan şəhərinə olan dostluq səfəri sabah televiziya və qəzetlərin əsas mövzusu olacaqdı.

Hər şeydən əvvəl biz çox gözəl hisslər keçirirdik. Yüksək səviyyədə və böyük hörmətlə qarşılanırdıq. Bu da miyakocimalılarda gözəl təəssürat yaratmışdı.

Səbirsizliklə gözlədiyimiz naharda Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı və digər hökumət adamları, eləcə də bizim dostluq missiyası qrupumuzun əməkdaşları da daxil olmaqla, təxminən, 50 nəfərə böyük ziyafət verildi. Bu qonaqpərvərlik razılıqla qarşılandı və üzərimizə böyük məsuliyyət qoydu. İstərdim ki, iyul ayında Naxçıvan nümayəndələrinin səfəri zamanı Okinavada da belə bir ziyafət təşkil olunsun. Naxçıvanda milli musiqi





və rəqslərdən ibarət konsert hamının zövqünü oxşadı. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı və Okinava prefekturası parlamentinin sədri ilə bir yerdə söhbət etdik və söhbət zamanı gələcək inkişaf planlarına aydınlıq gətirildi. Bir sözlə, bütün tədbir iştirakçılarında böyük ruh yüksəkliyi yaranmışdı.

Bundan sonra Biznes Mərkəzində Naxçıvanın sahibkarları ilə görüş keçirildi. Naxçıvan 10 illik iqtisadi inkişaf proqramına əsaslanaraq müxtəlif istehsal sahələrində böyük nailiyyətlər əldə etmişdir. Xüsusilə burada ən yeni istehsal sahələri yaradılmış və keyfiyyətli məhsullar istehsal olunur. Qayıdanda bizə yerli istehsal olan mürəbbə, çaxır və digər hədiyyələr verildi.

Səfər müddətində Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov bizi "Badamlı" adlanan və brend kimi tanınan zavoda apardı. 1947-ci ildə əsası qoyulmuş bu zavodun yaranmasından 68 il keçir. Mənbəyi Ermənistanla sərhəd olan dağ silsiləsindən götürülən bu yeraltı su paslanmayan boru ilə zavoda qədər çəkilib gətirilmişdir. Zavodda tərkibi yoxlanılaraq qablaşdırılır və yaxın ölkələrə ixrac olunur. Miyakocimada çıxan və daş kömürlə filtrasiya olunan yeraltı sular da çox dadlıdır. Naxçıvandakı su da çox dadlıdır. Suyun gətirildiyi hündür dağ silsilələri isə gözəl bir mənzərə yaradır.

Naxçıvanın duzu da çox məşhurdur. İnsan sağlamlığına və gözəlliyinə məlhəm olan Naxçıvan dağ duzu müxtəlif xəstəliklərin müalicəsində özünü doğrultmuşdur. Bu dağ duzunu çıxardan zaman uzun və əyri duz mağaraları yaranmışdır. Bu duz mağaralarının içində ilboyu hava temperaturu dəyişməz olaraq 18 dərəcə təşkil edir. Dağ duzundan yaranan ionlar insan bədəninə və sağlamlığına çox müsbət təsir göstərir. Ona görə də çox insan müalicə üçün buraya üz tutur. Duz mağarasına girəndə yorğunluğun dərhal yoxa çıxdığını, nəfəs alanda boğazın və bədənin təmizləndiyini hiss etmək olur. Doğrudan da qeyri-adi gücə malik bir yerdir.

Səhər saat 9-dan axşam saat 9-a qədər, 12 saat ərzində biz Naxçıvanı gəzdik. Növbəti gün Naxçıvan hava limanına gəldik. VİP terminalında Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov bizi kövrəldən kiçik bir ayrılıq nitqindən sonra çoxlu sovqat verərək yola saldı.

Naxçıvan çox gözəl və möhtəşəm bir şəhərdi. Çox təəssüf ki, indiyə qədər yaponlar bu gözəl şəhəri tanımayıblar. Aprelin 19-da keçirilən konfransımızda Naxçıvan haqqında çoxlu məlumat verməyi düşünürəm.

**İşida KAZUYASU**
***Yaponiyanın "World İnvestors TV" internet televiziyasının əməkdaşı***

---

# Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının konfransı keçirilmişdir

***Aprelin 27-də Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının konfransı keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının 5 illik fəaliyyətinə dair hesabatı dinləniləcək, daha sonra təşkilatın yeni İdarə Heyətinin üzvləri və qurumun sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi yekdilliklə qəbul olunmuşdur.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 2006-cı ildən fəaliyyətə başlayan Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatı bu qəbildən olan vətəndaşların təşkilatlanması və hüquqlarının təmin olunması istiqamətində mühüm vəzifələri icra etməkdə, həmin insanların təşkilatlandığı vahid mərkəz kimi mühüm əhəmiyyət daşımaqdadır. Təşkilat öz sıralarını 2011-2015-ci illər ərzində sağlam düşüncəli, vətənpərvər və dövlətçiliyə sədaqətli üzvlər hesabına daha da genişləndirmişdir.

Bildirilmişdir ki, ərazi bütövlüyümüz uğrunda döyüşən, Vətənə ləyaqətlə xidmət edən vətəndaşlar daim dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşdur. Muxtar respublikada müharibə veteranlarının və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, müharibə veteranlarının minik avtomobilləri ilə təmin edilməsi istiqamətində işlər davam etdirilmiş, veteranlara və şəhid ailələrinə hesabat dövrü ərzində 121 ədəd olmaqla, ümumilikdə, 373 ədəd "Oka", "Tavriya", "Slavuta" və "NAZ-Lifan" markalı avtomobil verilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında müharibə veteranları, şəhid ailələri və hərbi xidmət zamanı sağlamlığını qismən itirmiş vətəndaşlara bu günədək 193 fərdi ev və yaşayış mənzili verilmişdir ki, bunun da 16-sı 2011-2015-ci illərdə təqdim olunmuşdur. Təkcə 2015-ci ildə 20 nəfər təşkilat üzvünün müxtəlif sanatoriyalarda müalicəsi təmin edilmişdir.



Vurğulanmışdır ki, muxtar respublikamızda şəhid olmuş Vətən oğullarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində də mühüm addımlar atılmış, Naxçıvan şəhərində və rayon mərkəzlərində bir sıra küçələrə, məktəblərə onların adları verilmişdir. Naxçıvan şəhərindəki Şəhidlər xiyabanı yüksək səviyyədə əsaslı təmir olunmuş, muxtar respublika sakinlərinin daimi ziyarətgahına çevrilmişdir.

Məcid Seyidov muxtar respublikada yaşayan müharibə veteranları və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında birləşən 312 şəhid ailəsi, 374 müharibə əlili, 3 min 279 müharibə veteranı adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

İdarə Heyətinin yeni tərkibi seçildikdən sonra çıxış edən təşkilatın üzvləri Vəliqulu Həsənov və Qadir Məmmədov demişlər ki, ötən müddət ərzində təşkilatın sədri olan Məcid Seyidovun fəaliyyəti təşkilatın işinin canlanmasına, sağlam kollektivin formalaşmasına yönəlmişdir. Eyni zamanda təşkilatlanma işi uğurla aparılmış, keçirilən tədbirlərdə, aparılan təbliğat işlərində nəzərəçarpacaq irəliləyişlər hiss olunmuşdur. Bütün bunları nəzərə alan təşkilat üzvləri Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri vəzifəsinə Məcid Seyidovun namizədliyini irəli sürmüşlər. Təklif yekdilliklə dəstəklənmişdir.

Təşkilatın sədri Məcid Seyidov ona göstərilən etimada görə təşkilat üzvlərinə minnətdarlığını bildirmiş, etimadı doğrultmaq üçün səylə çalışacağını qeyd etmişdir.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının Nəzarət-Təftiş Komissiyasının say tərkibi müəyyənləşdirildikdən və komissiya üzvləri seçildikdən sonra konfransın qərar layihəsi oxunmuş və yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransda çıxış edərək bildirmişdir ki, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə fiziki sağlamlıqlarını itirmiş vətəndaşların, Azərbaycan Vətən Müharibəsi veteranlarının və şəhid ailələrinin etibarlı sosial müdafiəsinin təmin olunması ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən daim gücləndirilən sosial inkişaf kursunun mühüm tərkib hissəsidir. Muxtar respublikamızda da bu sahədə mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Azərbaycan Vətən Müharibəsi veteranları və şəhid ailələrinin rifah halının yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlər ildən-ilə daha geniş vüsət alır. Belə ki, müharibə veteranları və şəhid ailələri minik avtomobilləri, fərdi ev və yaşayış mənzilləri ilə təmin olunur, onların müxtəlif sanatoriyalarda müalicələri təşkil edilir. Bununla yanaşı, şəhid olmuş Vətən oğullarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində də mühüm addımlar atılmışdır.

"Muxtar respublikada fəaliyyət göstərən Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatı qeyri-hökumət təşkilatları içərisində özünəməxsus yer tutur", – deyən Rəhman Məmmədov qeyd etmişdir ki, bu təşkilat Azərbaycan Vətən Müharibəsi veteranları və şəhid ailələrinin qanuni mənafelərini və hüquqlarını müdafiə edir, onların müasir həyat şəraitinə uyğunlaşmasına, sosial və mənəvi problemlərinin daha səmərəli həll olunmasına köməklik göstərir, gənclərə hərbi-vətənpərvərlik tərbiyəsinin aşılanmasında mühüm rol oynayır. Buna görə də təşkilat gələcək fəaliyyətində, muxtar respublikanın hərtərəfli tərəqqisi proseslərində, ictimai həyatında daim fəal iştirak etməli, Azərbaycan Vətən Müharibəsi veteranları və şəhid ailələrinin mənafelərinin və hüquqlarının müdafiə edilməsi, onların problemlərinin daha səmərəli həll olunması istiqamətində fəaliyyətini artırmalıdır. Gənclərin milli-mənəvi dəyərlərə uyğun, hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında, o cümlədən şəhidlərin, əsasən də milli qəhrəmanların xatirəsinin yad edilməsi ilə bağlı aidiyyəti qurumlarla birgə tədbirlər keçirməli, gənclərin hərbi xidmətə yola salınması ilə bağlı keçirilən tədbirlərdə iştirak etməli, gənc əsgərlərlə müharibə veteranlarının görüşlərini təşkil etməlidir.

**Rauf ƏLİYEV**

## “Naxçıvan şəhərində ekoloji mədəniyyətin təbliği” layihəsi həyata keçirilir





***Bu gün dünyada ekoloji tarazlığın qorunması, təbiətsevərlərin təşəbbüs və təkliflərindən səmərəli istifadə olunması, suyun, havanın, torpağın çirklənmədən mühafizəsi böyük əhəmiyyət kəsb edir. Bu mənada, Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, təbiəti, fauna və flora müxtəlifliyi ölkəmizdə, ümumilikdə isə Qafqaz ekoregionunda xüsusi yerə malikdir.***

Bu barədə muxtar respublikada fəaliyyət göstərən “Təmiz Dünya” İctimai Birliyinin reallaşdırdığı “Naxçıvan şəhərində ekoloji mədəniyyətin təbliği” layihəsi çərçivəsində Naxçıvan şəhərindəki Gənclər Mərkəzində keçirilən seminar-aksiyada birliyin sədri, kimya üzrə fəlsəfə doktoru, beynəlxalq təlimçi Fizzə Məmmədova danışıb.

Fizzə Məmmədova bildirib ki, son illərdə qədim diyarımızda ətraf mühitin mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində mühüm işlər görülüb, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik olan yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində aparılan işlər prioritet vəzifəyə çevrilib. Nəticədə, yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması yurdumuzu yaşıllıqlar məskəninə çevirib. Bu həm də muxtar respublikanın hər bir guşəsində keçirilən iməciliklər nəticəsində mümkün olub. İməciliklər yolu ilə təkcə ötən il 216,8 hektar sahədə yaşıllıq zolağı və meyvə bağı salınıb, 446 min 320 ədəd ting əkilib, 324,2 hektar sahədə bərpa işləri aparılıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında son illər həyata keçirilən tədbirlər nəticəsində təsərrüfat-içməli su təminatı da xeyli yaxşılaşdırılıb, əkin sahələri artırılıb, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı yüksəldilib. Təsərrüfat suyu ilə təchizatda muxtar respublikada yerləşən su anbarlarının da böyük rolu var. 2009-cu ildən etibarən muxtar respublikanın paytaxtı Naxçıvanda və rayon mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması bir sıra problemlərin həllinə səbəb olub. 2014-cü il aprelin 7-də Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi isə muxtar respublikanın paytaxtında yaşayan əhalinin keyfiyyətli su ilə təminatında mühüm rol oynayıb. Bu, bir daha göstərir ki, Naxçıvanda həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Çünki hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təminatı, ekoloji tarazlığın qorunması ön planda saxlanılır. Nəzərə almaq lazımdır ki, dünyada yaşayan 2,5 milyarddan çox insan hazırda susuzluq səbəbindən praktik olaraq gigiyena və sanitariya üsullarından istifadə etmək imkanından məhrumdur. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, xərçəng xəstəliyinin səbəblərinin 60-90 faizi məhz ətraf mühitin, o cümlədən havanın, suyun çirkləndirilməsi ilə bağlıdır.

Vurğulanıb ki, əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpası, tullantıların toplanması və zərərsizləşdirilməsi qaydalarına əməl edilməsi, təbii resurslardan əhalinin rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə olunmasıdır. Muxtar respublikamızda ekoloji tarazlığın qorunub saxlanılması üçün mühüm addımların atılmasına baxmayaraq, hələ də ətraf mühitə biganə yanaşanlara rast gəlinir. Unutmaq olmaz ki, ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi halları baş verir. Buna görə də ətraf mühitin qorunması hər birimizin vətəndaşlıq borcudur.

“Muxtar respublikamızda sağlam ekoloji mühitin yaradılması həyata keçirilən müxtəlif istiqamətli tədbirlərin tərkib hissəsinə çevrilib”, – deyən Fizzə Məmmədova bildirib ki, “Təmiz Dünya” İctimai Birliyi də bir qeyri-hökumət təşkilatı kimi bu sahədə görülən işlərə öz töhfəsini verməyə çalışır. Bu baxımdan “Naxçıvan şəhərində ekoloji mədəniyyətin təbliği” layihəsinin məqsədi ekoloji bilik və təcrübə əsasında gənclər arasında seminarlar keçirməklə onların diqqətini bu məsələlərə cəlb etməkdir. “Təmiz Dünya” İctimai Birliyi əvvəllər həyata keçirdiyi layihələrin təcrübəsindən istifadə edərək gənclərin şəhərimizin səliqə-sahmanında, yaşıllıqların artırılmasında, onların yaşadıqları və təhsil aldıqları ərazilərin təmizliyində və mühafizəsində iştirakını artırmağa səy göstərəcəkdir.

İctimai birliyin üzvləri Cavadxan Qasımov, Aliyə Rzayeva, Mahnur Cəfərli və Turac Süleymanova çıxış edərək bildiriblər ki, muxtar respublikamızda sağlam ekoloji mühitin yaradılması həyata keçirilən müxtəlif istiqamətli tədbirlərin tərkib hissəsinə çevrilib. Yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri, fauna və floramızın qorunmasının və zənginləşdirilməsinin təmin olunması üçün maarifləndirici tədbirlərin aparılması davamlı xarakter alıb. Aidiyyəti qurumların və əhalinin bu tədbirlərdə fəallığı muxtar respublikada sağlam ekoloji mühitin yaradılmasında stimul olub. “Naxçıvan şəhərində ekoloji mədəniyyətin təbliği” layihəsinin məqsədi də muxtar respublikada uğurla həyata keçirilən ekoloji tədbirlərə töhfə vermək, əhalinin maariflənməsi prosesində iştirak etməkdir.

Sonra Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Tibb Kollecinin tələbələrinin iştirakı ilə “Şəhəri təmizləyək” şüarı altında iməcilik aksiyası keçirilib. Aksiyanın əsas məqsədi şəhərin təmizliyinin qorunması, əhali arasında ekoloji maarifləndirmə işlərinin gücləndirilməsinə ictimai dəstək və gəncləri bu cür layihələrdə fəal iştiraka cəlb etməkdir.

Aksiya çərçivəsində Naxçıvan şəhərinin mərkəzi yolları, parkları məişət tullantılarından təmizlənib, gənclər fərdi qaydada əhali arasında maarifləndirmə işləri aparıblar.

**Rauf ƏLİYEV**

## Kənd yaşıl turizmi ilə bağlı maarifləndirici tədbir

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Ordubad rayonunun Bist və Tivi kəndlərində kənd yaşıl turizminin inkişaf etdirilməsi ilə bağlı maarifləndirici tədbir keçirilib.***

Bist Kənd Mərkəzində keçirilən tədbirdə Xurs, Ələhi, Nürgüt, Bist, Tivi Kənd Mərkəzindəki tədbirdə isə Tivi və Nəsirvaz kəndlərinin sakinləri iştirak ediblər. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Turizm şöbəsinin müdiri Piri Nağıyev “Ordubad rayonunun Bist və Tivi kəndlərinin turizm potensialı” mövzusunda çıxışında tədbir iştirakçılarına kənd yaşıl turizmi haqqında ətraflı məlumat verib. Bildirilib ki, Bist və Tivi kəndlərində bu sahəni inkişaf etdirmək üçün geniş imkanlar və şərait vardır. Qeyd olunub ki, işin düzgün qurulması qədim diyarımızın, adət-ənənələrimizin, milli dəyərlərimizin təbliğ olunmasında əhəmiyyətli rol oynaya bilər. Zəngin təbiətimiz, ekoloji cəhətdən təmiz qida məhsullarımız, şəfalı sularımız muxtar respublikada ekoloji və kənd yaşıl turizminin inkişafını şərtləndirən əsas amillərdəndir. Turizmin inkişafında vətəndaşların da üzərinə müəyyən vəzifələr düşdüyü tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əkbər Novruzov “Kənd yaşıl turizmi və bu sahədə gəlirlərin formalaşması” mövzusunda çıxış edərək kənd turizmində evlərdə turistlərə göstəriləcək xidmətlər, qiymətlər və gəlirlərin formalaşması, turizmlə bağlı ölkəmizdə yaradılmış qanunvericilik bazası haqqında məlumat verib.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova “Turizm İnformasiya Mərkəzinin kənd yaşıl turizminin təbliğində rolu” mövzusunda çıxış edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Əli RZAYEV**

*28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür*

## Əməyin mühafizəsi sosial siyasətin mühüm tərkib hissəsidir

***Beynəlxalq Əmək Təşkilatı tərəfindən aprelin 28-i Ümumdünya Əməyin Mühafizəsi Günü elan edilmişdir.***

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda əməyin mühafizəsini, işçilərin hüquqlarının qorunmasını, təhlükəsiz və sağlam iş yerlərinin yaradılmasını sosial siyasətin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Ölkəmizdə əmək qanunvericiliyi sahəsində islahatlar aparılmış, əmək münasibətləri və əməyin mühafizəsi sahəsində beynəlxalq prinsiplərə uyğun normativ-hüquqi aktlar qəbul edilmişdir. 1997-ci ildə əmək qanunvericiliyinə əməl olunmasına nəzarəti həyata keçirən dövlət qurumu yaradılmış, 1999-cu ildə isə Əmək Məcəlləsi qəbul edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında da hər kəsin sağlam və təhlükəsiz şəraitdə işləmək, əmək və istirahət hüquqları təsbit olunmuşdur.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əməyin mühafizəsi tədbirləri uğurla həyata keçirilir. Əmək hüquqlarının təmin olunması diqqət mərkəzində saxlanılır, əməyin mühafizəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, əmək şəraitinin yaxşılaşdırılması, istehsalat mədəniyyətinin yüksəldilməsi istiqamətində mühüm işlər görülür.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da əməyin mühafizəsi tədbirləri diqqət mərkəzindədir. Muxtar respublikanın bütün bölgələrində geniş tikinti-quruculuq işləri aparılır, yeni istehsal və xidmət müəssisələri yaradılır. Bütün bunlar əhalinin məşğulluğunun və rahat yaşayışının təmin olunması ilə yanaşı, həm də iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək hüquqlarının qorunması və əməyin mühafizəsi tədbirlərinin genişləndirilməsini şərtləndirir. 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, 2012-ci ildə tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması və 2014-cü ildə tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirələr əməyin mühafizəsi sahəsində uğurlu nəticələrin qazanılmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” qeyri-formal məşğulluğun qarşısının alınması və əməyin mühafizəsi istiqamətində daha geniş tədbirlərin görülməsini təmin edəcəkdir. Hazırda muxtar respublikada insanların həyatı, sağlamlığı və əmlakı üçün təhlükə yarada biləcək hadisələrin qarşısının alınması, tikinti aparılan obyektlərdə işçilər üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlərin hazırlanması, onların peşələrinə uyğun xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin edilməsi əməyin mühafizəsi sahəsində görülən işlərin tərkib hissəsidir.

Əməyin mühafizə normaları və qaydalarının pozulması, bu normaların yaxşı mənimsənilməməsi, avadanlıq və qurğuların istismar qaydalarına əməl olunmaması, əmək və icra intizamının pozulması kimi hallar iş yerlərində bədbəxt hadisələrin baş verməsinə səbəb olur. Ona görə də hər bir işçi əməyin mühafizəsi üzrə müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulan tələbləri öyrənməli və onlara əməl etməlidir. Hazırda muxtar respublikanın tikinti və istehsal müəssisələrində əmək normalarına diqqət yetirilir, işçilərin bədbəxt hadisələr və peşə xəstəlikləri zamanı peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunması istiqamətində maarifləndirici tədbirlər görülür. Bu ilin birinci rübündə əməyin mühafizəsinin təşkili ilə bağlı 7 obyektə baxış keçirilmiş, 24 halda istehsal sahəsində çalışan işçilər fərdi mühafizə vasitələri ilə təmin edilmişdir. Qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı 188 obyektdə yoxlama aparılmış, 164 halda yeni əmək münasibətlərinin rəsmiləşdirilməsinə, 430 halda isə əməkhaqqının real göstərilməsinə nail olunmuş, istehsalatda yüngül xəsarətalma ilə nəticələnən hadisələrin təkrarlanmaması üçün işəgötürənlərə metodik köməklik göstərilmişdir. Bundan başqa, 6 müəssisədə əməyin mühafizəsi üzrə biliklərin və peşəkarlığın artırılması məqsədilə maarifləndirici seminarlar davam etdirilmiş, işçilərə əməyin mühafizəsinə dair bukletlər təqdim edilmiş, kadr işləri üzrə mütəxəssislər Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda keçirilən kurslara cəlb olunmuşlar.

*Ümumiyyətlə, son illər muxtar respublikada istehsal və tikinti sahəsində işçilərin əmək hüquqlarının qorunması və əməyin mühafizəsinin təşkili ilə bağlı həyata keçirilən tədbirlər öz bəhrəsini vermiş, bədbəxt hadisələrin sayı minimuma enmiş, peşə xəstəliklərinin qarşısı alınmışdır. Bu sahədə maarifləndirici tədbirlərin təşkili isə işçilərin peşə vərdişlərini daha da möhkəmləndirmiş, əmək məhsuldarlığı yüksəlmişdir.*

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tennis birinciliyinə yekun vurulub

Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə rayonda fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri arasında stolüstü tennis üzrə açıq birincilik keçirilib. “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında keçirilən birincilik Qıvraq qəsəbə tam orta məktəbində baş tutub.

Birincilikdə 16 idmançı iştirak edib. Gərgin keçən oyunların nəticələrinə görə Qıvraq qəsəbə tam orta məktəbinin şagirdi Babanur Məmmədov qalib adını qazanıb. Elə digər iki pillədə də bu məktəbin şagirdləri Vüsal Məmmədov və Höccət Seyidov qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplomlarla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

*İtmişdir*

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 2, ev 11-də yaşayan Əliyev Yavər İsmayıl oğlunun adına olan evin 1051 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

“Cavid” Məhdud Məsuliyyətli Cəmiyyətinin 0700206361 nömrəli VÖEN şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 325